22 iyun / 2021

iki sahil

# Anar Kərimov Migel Angel Moratinos ilə görüşüb



**İyunun 21-də mədəniyyət naziri Anar Kərimov ölkəmizdə səfərdə olan BMT-nin Sivilizasiyalar Alyansı (BMTSA) üzrə ali nümayəndəsi Migel Angel Moratinosla görüşüb.**

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, görüşdə Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Azərbaycan mədəniyyətinə dəymiş ziyan, habelə Prezident İlham Əliyevin "Bakı prosesi" təşəbbüsü, bu təşəbbüs çərçivəsində baş tutacaq 6-cı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təşkili, eləcə də Azərbaycanın beynəlxalq miqyasda mədəniyyətlər və dinlərarası dialoqa töhfələri ilə bağlı müzakirələr aparılıb.

Nazir qeyd edib ki, BMTSA 2010-cu ildən etibarən "Bakı prosesi" və Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun tərəfdaşıdır. O, həmçinin BMTSA-nın 7-ci Qlobal Forumunun 2016-cı ildə Bakıda yüksək səviyyədə keçirildiyini bildirib.

Bakıda olmasından məmnunluğunu ifadə edən Migel Angel Moratinos ölkəmizdə keçirdiyi görüşlərdən danışıb.

Görüşdə regionda mədəniyyətlər və dinlərarası münasibətlərin inkişafı ilə bağlı təşəbbüs və layihələrin icrası və həmin layihələrin yaxşı nümunə kimi Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda təqdim edilməsi barədə müzakirələr aparılıb.